**Dəniz qəzalarının araşdırılması sektorunun**

**Əsasnaməsi**

## 1. Ümumi müddəalar

1.1. Dəniz qəzalarının araşdırılması sektoru (bundan sonra – Sektor) dənizdə gəmilərdə baş vermiş qəzaların araşdırılmasının düzgün aparılması, qəzalara dair sübutların toplanılması və təhlili, qəzaların başvermə səbəblərinin müəyyən olunması, gələcəkdə belə qəzaların qarşısının alınması və dəniz üzgüçülüyünün təhlükəsizliyinin təmin olunmasına dair tövsiyələrin hazırlanması sahəsində tədbirlərin görülməsini təmin edən Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının (bundan sonra – Administrasiya) müstəqil bölməsidir.

1.2. Sektor öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, dəniz nəqliyyatı sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının normativ hüquqi aktlarını rəhbər tutur.

1.3. Sektor öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən bitərəf və qərəzsiz olmaqla qurumlar, şəxslər və ya təşkilatlar tərəfindən yönləndirmə və müdaxiləyə məruz qalmadan, eyni zamanda cinayət, inzibati və ya başqa icraat qaydasında aparılan hər hansı bir araşdırmadan asılı olmadan fəaliyyət göstərir.

1.4. Sektor fəaliyyətini "Dəniz qəzasının, yaxud hadisəsinin (insidentinin) araşdırılmasına dair tövsiyə edilən təcrübə və Beynəlxalq Standartlar Məcəlləsi" (Beynəlxalq Dəniz Təşkilatının 16 may 2008-ci il tarixli MSC.255(84) Qətnaməsi) ilə müəyyən edilmiş müstəqillik, dəniz üzgüçülüyünün təhlükəsizliyinə diqqət yetirmə, əməkdaşlıq, üstünlük və qəzanın araşdırılmasının əhatə dairəsi prinsipləri əsasında qurur.

1.5. Sektorun saxlanılması xərcləri və fəaliyyəti Azərbaycan Respublikasının dövlət büdcəsi hesabına maliyyələşdirilir.

1.6. Sektor öz adı yazılmış yazışmalar üçün blanka malikdir.

## 2. Sektorun fəaliyyət istiqamətləri

2.1. Sektorun fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.1.1. dənizdə gəmilərdə baş vermiş qəzaların araşdırılmasını təmin edir;

2.1.2. gələcəkdə dənizdə gəmilərdə qəzaların baş verməməsi üçün tədbirlərin görülməsini təmin edir.

## 3. Sektorun vəzifələri

3.1. Sektor bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. dənizdə gəmidə baş vermiş qəzanın növünü müəyyən edir;

3.1.2. dənizdə gəmidə baş vermiş qəzanın qeydiyyatını aparır;

3.1.3. Azərbaycan Respublikasının ərazi sularında xarici dövlətin bayrağı altında üzən gəmidə, həmçinin açıq dənizdə, digər dövlətlərin xüsusi iqtisadi zonasında və ya ərazi sularında Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmidə qəza baş verdikdə maraqlı dövlətləri məlumatlandırır;

3.1.4. Azərbaycan Respublikasının ərazi sularında xarici dövlətin bayrağı altında üzən gəmidə qəza baş verdikdə, həmçinin açıq dənizdə, digər dövlətlərin xüsusi iqtisadi zonasında və ya ərazi sularında baş vermiş qəzada digər dövlətlərlə yanaşı Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmi iştirak etdikdə qəzanı araşdıran dövlətin və ya dövlətlərin müəyyənləşdirilməsi barədə razılığın əldə edilməsi ilə əlaqədar tədbirlər görür;

3.1.5. müəyyən edilmiş hallarda dənizdə gəmidə baş vermiş qəzanın araşdırılması zamanı digər maraqlı dövlət tərəfindən ayrıca araşdırmanın həyata keçirilməsi üçün zəruri tədbirlərin həyata keçirilməsini təmin edir;

3.1.6. gəmi sahibinə, gəmi kapitanına və gəmi agentinə qəzanın araşdırılmasına başlanılması barədə məlumat verir;

3.1.7. qanunvericiliklə müəyyən edilmiş qaydada dənizdə gəmidə baş vermiş qəzaya dair bütün məlumatları və sübutları toplayır, eləcə də qəzaya aidiyyəti olan faktları müəyyən edir;

3.1.8. dənizdə gəmidə baş vermiş qəzanın hallarını tədqiq edir;

3.1.9. dənizdə gəmidə baş vermiş qəza ilə bağlı toplanmış materialları təhlil edir;

3.1.10. dənizdə gəmidə baş vermiş qəzanın başvermə səbəblərini və şəraitini müəyyən edir;

3.1.11. gələcəkdə belə qəzaların qarşısının alınmasına dair tövsiyələr hazırlayır;

3.1.12. qəzaya dair araşdırma hesabatını hazırlayır;

3.1.13. qəzaya dair araşdırma hesabatını gəmi sahibinə, zəruri hallarda digər dövlətə təqdim edir;

3.1.14. qəzaya dair araşdırma hesabatına rəy daxil olduqda onun baxılmasını təmin edir və müvaviq qərarı qəbul edir;

3.1.15. qəzaya dair araşdırma hesabatının ictimaiyyətə açıqlanması sahəsində tədbirlər görür, həmin hesabatı kağız və elektron daşıyıcılarda saxlayır;

3.1.16. dənizdə gəmidə baş vermiş qəza barədə məlumatların Beynəlxalq Dəniz Təşkilatına təqdim olunması məqsədi ilə tədbirlər görür;

3.1.17. Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəmilərin sahibləri tərəfindən araşdırmaların nəticələrinə əsasən hazırlanmış tövsiyələrin icra olunmasına nəzarət edir;

3.1.18. dənizdə gəmidə baş vermiş qəzaların səbəblərini ümumiləşdirir;

3.1.19. dənizdə gəmidə qəza baş verdikdə məlumatın operativ surətdə təqdim olunması üçün daimi (24 saat) işləyən nömrənin fəaliyyətini təmin edir;

3.1.20. Sektorun fəaliyyətinə dair normativ hüquqi aktlarla tanış olur və onların icrasını təmin edir;

3.1.21. Sektorun səlahiyyətlərinə aid olan məsələlər üzrə normativ hüquqi aktların layihələrinin hazırlanmasında iştirak edir;

3.1.22. Sektorun fəaliyyəti prosesində qanunvericiliyə uyğun olaraq xidməti məlumatların və dövlət sirrinin qorunmasını təmin edir;

3.1.23. dənizdə gəmidə baş vermiş qəzaların araşdırılması ilə bağlı digər zəruri tədbirləri görür.

## 4. Sektorun hüquqları

4.1. Sektor öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.1.1. dənizdə gəmilərdə baş vermiş qəzalar barədə məlumatları əldə etmək;

4.1.2. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq qanunvericiliklə onun səlahiyyətlərinə aid edilmiş hallarda və qaydada Azərbaycan Respublikasının ərazisində mülkiyyət növündən və milli mənsubiyyətindən (Dövlət bayrağından) asılı olmayaraq, bütün dəniz gəmilərinə, liman və digər dəniz nəqliyyatı obyektlərinə maneəsiz daxil olmaq;

4.1.3. dənizdə gəmidə baş vermiş qəzaya aidiyyəti olan məlumatları tələb etmək;

4.1.4. zəruri laborator analizlərinin və ya ekspertizalarının aparılmasını təyin etmək;

4.1.5. laborator və digər analizlərin, yaxud ekspertizaların aparılması üçün mütəxəssisləri cəlb etmək;

4.1.6. dənizdə gəmidə baş vermiş qəzaya dair əhəmiyyət kəsb edən halların müəyyən edilməsi üçün müstəqil ekspertləri öz fəaliyyətinə cəlb etmək;

4.1.7. dənizdə gəmidə baş vermiş qəza ilə əlaqədar şahidləri və ya aidiyyəti şəxslərin hüquqlarını pozmadan sorğu etmək;

4.1.8. dənizdə gəmilərdə baş vermiş qəzanın araşdırılması üçün lazımi vəsaitləri və maddi resursları əldə etmək;

4.1.9. dənizdə gəmidə baş vermiş qəzanı araşdıran dövlətin müəyyənləşdirilməsi ilə bağlı razılıq əldə olunduqdan sonra Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən gəminin iştirak etdiyi qəzanın baş vermə yerindən asılı olmayaraq həmin araşdırmada ixtisaslı araşdırma aparan şəxslərin iştirakını təmin etmək;.

4.1.10. qanunvericilikdə nəzərdə tutulmuş qaydada dənizdə gəmidə baş vermiş qəzanın araşdırılması ilə əlaqədar maraqlı tərəflərlə əməkdaşlıq etmək;

4.1.11. dənizdə gəmidə baş vermiş qəzanın araşdırılması bitdikdən sonra onun təhlilini və nəticələrini əhəmiyyətli şəkildə dəyişə biləcək yeni sübutlar aşkar edildikdə həmin qəzanı yenidən araşdırmaq;

4.1.12. konfranslar, seminarlar, simpoziumlar, görüşlər və digər tədbirlərdə iştirak etmək.

## 5. Sektorun fəaliyyətinin təşkili

5.1. Sektorun əməkdaşlarının sayı Administrasiyanın rəisi tərəfindən təsdiq edilir.

5.2. Sektora Administrasiyanın rəisi tərəfindən vəzifəyə təyin olunan və vəzifədən azad olunan sektor müdiri rəhbərlik edir. Sektor müdiri Sektora həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə görə şəxsən məsuliyyət daşıyır.

5.3. Sektor müdiri aşağıdakı səlahiyyətlərə malikdir:

5.3.1. Sektorun fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.3.2. Sektorun əməkdaşları arasında iş bölgüsü aparır, onların fəaliyyətini əlaqələndirir, əmək və icra intizamına riayət etmələrinə nəzarət edir və davranışlarının etik davranış qaydalarına uyğunluğunu müntəzəm təhlil edir;

5.3.3. daxil olan məktub, ərizə, şikayət və təkliflərə qanunvericilikdə nəzərdə tutulmuş qaydada baxılmasını təşkil edir;

5.3.4. Sektorda kargüzarlıq işlərinin aparılmasını və məxfilik rejimini təmin edir;

5.3.5. Sektorun əməkdaşlarının ixtisasının artırılması və əmək şəraitinin yaxşılaşdırılması üçün müvafiq tədbirləri həyata keçirir;

5.3.6. Sektoru təmsil edir;

5.3.7. qanunvericiliyə uyğun olaraq digər məsələlərin həllini təmin edir.

5.4. Sektorun əməkdaşları onlara həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyırlar.